**AZƏRBAYCANRESPUBLİKASI**

*Əlyazmasıhüququnda*

# XIX ƏSRDƏ OSMANLI CƏMİYYƏTİNDƏ TÜRK ZİYALI TƏBƏQƏSİNİN FORMALAŞMASININ İCTİMAİ-MƏDƏNİ ŞƏRTLƏRİ

İxtisas: Ümumitarix – 5502.01
Elmsahəsi: Tarix
İddiaçı: **Natavan QalibqızıAğayeva**

Fəlsəfədoktoruelmidərəcəsialmaqüçüntəqdimedilmişdissertasiyanın

**AVTOREFERATI**

**Bakı- 2024**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun "Türkiyə tarixi və iqtisadiyyatı" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru, professor
**Şahin Məcid oğlu Mustafayev**

Rəsmi opponentlər: tarix elmləri doktoru, professor
**Abdullah Gündoğdu**

tarix üzrə fəlsəfə doktoru, dosent
**Şirinbəy Hacıəli oğlu Əliyev**

tarix üzrə fəlsəfə doktoru, dosent
**Sevinc Fərrux qızı Ruintən**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurası:

Dissertasiya şurasının sədri: tarix elmləri doktoru, professor
____________ **Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya şurasının elmi katibi: tarix elmləri doktoru, dosent
____________ **İlqar Vahid oğlu Niftəliyev**

Elmi seminarın sədri: AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru professor
____________ **Musa Cəfər oğlu Qasımlı**

# I.DİSSERTASİYANIN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi:** Dünya tarixinin son üç əsri boyu ziyalılar cəmiyyətin ən qabaqcıl və mütəfəkkir təbəqəsi kimi mühüm ictimai və mədəni rola malik olmuşlar. Onların vətəndaş mövqeyi, siyasi səriştəsi və fəaliyyəti bir çox hallarda tarixi hadisələrin gələcək gedişatını müəyyən etmişdir. Bu səbəbdən milli ziyalı təbəqəsinin formalaşmasına təsir göstərən ilkin şərt və amillərin, iştirakçısı olduqları ictimai-siyasi və mədəni hadisələrin, eyni zamanda sahib olduqları dəyərlər sisteminin tədqiqi böyük əhəmiyyət kəsb edir.

Qeyd olunan amilləri XIX əsr Osmanlı cəmiyyətində türk ziyalı təbəqəsinə və onun formalaşma prosesinə də aid etmək olar.Belə ki, yaşadığı dövr üçün müasir Qərb təhsilli həmin ictimai qrupun Osmanlı cəmiyyətinin sosial strukturunda müstəqil təbəqə kimi meydana çıxması həm imperiyanın, həm də türk xalqının tarixi taleyinin sonrakı gedişatına mühüm təsir göstərmişdir. Məhz gənc türk ziyalıları modernləşmə ideyalarının daşıyıcısı olmuş, siyasi və mədəni islahat hərəkatının başında durmuşlar. Bu ideyalar sonralar Osmanlı imperiyası ilə qonşu olan bir sıra ölkələrdə, məsələn, İranda modernləşmə siyasətinə də müəyyən təsir göstərmişdir.

Qeyd edilənlər XIX əsr Osmanlı imperiyasında türk ziyalı təbəqəsinin formalaşması probleminin elmi aktuallıq dərəcəsini şərtləndirir və bu mövzunu müstəqil dissertasiya tədqiqatı üçün yararlı mövzular sırasına qoyur.

Tədqiqatın xronoloji çərçivəsi XIX əsrin əvvəllərindən – Sultan II Mahmudun (1808-1839) ilk ictimai-siyasi və hərbi islahatları apardığı dövrdən XX əsrin əvvəlinə qədər olan dövrü – Sultan II Əbdülhəmidin hakimiyyəti (1876-1909) illərini əhatə edir. Bununla belə, qeyd etmək lazımdır ki, XIX əsrdə baş vermiş bir sıra hadisələrin səbəblərini, mahiyyət və nəticələrini daha yaxşı aydınlaşdırmaq üçün tədqiqatda XVIII və XX əsrlərdə baş vermiş bəzi hadisələrə də yer verilmişdir.

Tədqiqata müxtəlif növ və kateqoriyalı mənbələr cəlb edilmişdir. Araşdırma zamanı başda Osmanlı arxivlərində (T.C. CumhurbaşkanlığıDevletArşivleri) saxlanılanvə Osmanlı Arxivləri

Baş Müdirliyi (DevletArşivleriGenelMüdürlüğü) tərəfindən nəşr edilən bir sıraarxiv materiallarından,məsələn, 1798-1922-ci illər arasında təhsil sahəsində qəbul edilmiş fərman, nizamnamə və qanunlar toplusundan[1], imperiyada həyata keçirilən fərqli göstəri sənətləri (teatr tamaşaları, konsertlər, sirk sənətləri və s.) ilə bağlı sənədlər toplusundan[2], eləcə də araşdırılan dövrdə Osmanlı imperiyasında təhsil və incəsənət sahələrində baş verən modernləşmə prosesinin öyrənilməsi üçün vacib olan başqa önəmli mənbələrdən, fundamental tədqiqat əsərlərindən, mətbuat əsərlərindən və s. istifadə olunmuşdur.

Məlumdur ki, XVIII əsrin sonlarına doğru Osmanlıimperiyasıdövlət idarəçiliyi sahəsində ciddi çətinliklərlə üzləşmiş, həmin çətinliklər onu xarici təhlükələr və qonşu dövlətlərlə davamlı müharibələr nəticəsində zəiflətmişdir. Bu vəziyyətdə müasir təhsilli, dövrün tələblərinə uyğun problemləri həll etməyə qadir olan yeni gənc məmur nəslinin yetişdirilməsi zərurəti yuxarı təbəqənin və siyasi elitanın planlarında özünü daha qabarıq şəkildə göstərirdi. Bu məqsədlə tədricən çoxsaylı dar profilli təhsil müəssisələri, yeniüsullu məktəblər açılmağa başladı, ibtidai təhsil təşkil edildi. Məhz bu təhsil ocaqlarının məzunları sonralar gənc türk ziyalı təbəqəsinin əsasını təşkil etmiş, xalq kütlələrinin maarifləndirilməsi vəzifəsini öz üzərinə götürmüş və Osmanlı imperiyasında milli teatr, dövri mətbuat, yeni ədəbiyyat və s. kimi çağdaş intellektual-mədəni hadisələrin inkişafına böyük töhfə vermişdir. Sonralar teatr tamaşaları, nəşr olunan qəzetlər, yazılı əsərlər islahat təşəbbüslərinin xalq arasında yayılması üçün istifadə olunan əsas platformalara çevrildi.

Tədqiqatda arxiv materialları ilə yanaşı, bioqrafiya, avtobioqrafiya, məktub, səyahət qeydləri, qeydlər, oçerk kimi xatirə və epistolyar janrlara aid əsərlərdən də istifadə edilmişdir. Bu növ mənbələr türk ziyalı təbəqəsi nümayəndəsinin şəxsiyyətinin

---

[1]ArşivBelgelerineGöre Osmanlı EğitimindeModernleşme // T.C. BaşbakanlıkDevletArşivleriGenelMüdürlüğü, Osmanlı ArşiviDaireBaşkanlığı. Yayın Nu: 134. – İstanbul, – 2014.

[2]ArşivBelgelerineGöreOsmanlı’daGösteriSanatları / Proje yön. Uğur Ünal, TC BaşbakanlıkDevletArşivleriGenelMüdürlüğü Osmanlı ArşiviDaireBaşkanlığı. Yayın nu: 138. – İstanbul: BionMatbaacılık, – 2015.

formalaşması prosesini müxtəlif yönlərdən izləməyə imkan verir. Türk ziyalıların xatirələri, məsələn, dövrünün qabaqcıl jurnalı olan "Servet-i Fünun"unsahibi AhmetİhsanTokgözün "Mətbuat xatirələri"[3] əsəri, nasir və dramaturqHalid Ziya Uşaklıgilin "Qırx il" adlı xatirələri[4], yeni Tənzimat ədəbiyyatının görkəmli nümayəndəsi Namık Kamalın məktubları[5],Tənzimat dövrü islahatlarının önəmli simalarındantarixçi AhmetCevdet Paşanın qızı –gənc türk ziyalılarının parlaq nümayəndəsi Fatma AliyeTopuz tərəfindən yazılmıştərcümeyi-hal[6] və başqaları, türk ziyalısının şəxsiyyətinin formalaşması prosesinə sanki daxildən baxmağa, bu prosesə həlledici təsir göstərən amil və hadisələri müəyyən etməyə imkan verir.

XIX əsr Osmanlısında yaşayan, imperiyaya xidmət edən və ya buraya səyahət edən digər xalqların nümayəndələrinin xatirələri və səyahət qeydləri, məsələn, ingilis yazıçısı və səyyahı JuliaPardo[7], ingilis jurnalisti QreysAllison[8], fransız aristokratı Baron de Tott[9], fransız romantizminin ən böyük şairlərindən biri, Fransa

---

[3]Tokgöz, A.İ. MetbuatHatıralarım (1888-1914) / haz. NecatiTonga. – Ankara: Çolpan Kitap. – 2020.

[4]Uşaklıgil, Z.H. Kırkyıl / Z.H.Uşaklıgil. – İstanbul: İnkilapKitabevi. –1987.

[5]NamıkKemal'inHususiMektupları: [4 cilt] / haz. F.A. Tansel. – Ankara: Türk TarihKurumu, – c. I: İstanbul, AvrupaveMagosamektupları, 2. bsk. – 2013; NamıkKemal'inHususiMektupları: [4 cilt] / haz. F.A. Tansel. – Ankara: Türk TarihKurumu, – c. III: Midillimektupları, 2. bsk.– 2013; NamıkKemal'inHususiMektupları: [4 cilt] / haz. FevziyeAbdullahTansel. – Ankara: Türk TarihKurumu, – c. IV: RodosveSakızmektupları, 2. bsk. – 2013.

[6]Topuz, F.A. AhmetCevdet Paşa ve Zamanı / F.A.Topuz. – İstanbul: PınarYayınları, – 1994.

[7]Pardoe, J. Beauties of theBosphorus. Views of Constantinople / J.Pardoe. – London: byGeorgeVirtue, – 1838; Pardoe, J. The City of the Sultan; and domestic manners of the Turks, in 1836: [in 3 volumes] / J.Pardoe. – London: Henry Colburn pub., – Vol. I. –1837.

[8]ZeynebHanoum. A TurkishWoman'sEuropeanImpressions, edited&with an introductionbyGraceEllison / Zeyneb h. – London: J. B. Lippincott Company, – 1913.

[9]Tott, F. Memoirs of Baron de Tott containing the state of the Turkish Empire and the Crimea, During the late war with Russia. The Second Edition: [In two Volumes] / F.Tott. – London: printed for G.G.J. and J.Robinson, Pater-Noster-Row, –Vol. I. – 1786.

Akademiyasının üzvü Alfons de Lamartin[10], rus şərqşünası və səyyahı Konstantin Bazili[11], amerikalı alim Ceyms DeKay[12], eləcə də Osmanlı imperiyasına səyahət etmiş, türk ziyalılarının nümayəndələri ilə birbaşa təmasda olmuş digər əcnəbilərin qələmindən çıxan xatirələr isətürk ziyalı təbəqəsinin formalaşması prosesinə kənardan,fərqliQərb mədəniyyəti nümayəndələrinin gözüylə baxmağa imkan yaratmışdır. Təbii olaraq budaöz növbəsində, tədqiqat mövzusunun daha obyektiv mənzərəsini canlandırmağa imkan vermişdir.

Dissertasiya işində istifadə olunan mənbələr arasında Osmanlı imperiyasının siyasi, iqtisadi, mədəni və sosial vəziyyətinə dair risalələr xüsusi yer tutur. Fransız tarixçisi JanAnriUbiçininin 1877-ci ildə nəşr etdirdiyi "Osmanlı İmperatorluğunun hazırkı vəziyyəti"[13]əsəri, hərbçi və şərqşünas Mixail Ladıjenskinin"Avropa Türkiyəsinə və Konstantinopol ətrafına topoqrafik və hərbi baxımdan baxış, Osmanlı İmperiyasının əsas qərarlarının təsviri əlavə edilməklə" (1828)[14], rus şərqşünas-türkoloquVasiliSmirnovun "Türk sivilizasiyası, onun məktəbləri, softaları, kitabxanaları, və nəşriyyat işi" (1876)[15], ingilis iqtisadçısı Tomas Torntonun "Türkiyənin indiki vəziyyəti və onun siyasi, mülki və dini quruluşunun təsviri, hökumət

---

[10]Lamartine, A. Voyage en Orient 1832-1833 / A.Lamartine. – Paris: C.Gosselin, – 1843.

[11] Базили, К. Очерки Константинополя / К.Базили. – СПб.: тип. Н. Греча, – 1835.Часть первая; Базили, К. Очерки Константинополя / К.Базили. – СПб.: тип. Н. Греча, –1835. Частьвторая.

[12]De Kay, J.E. Sketches of Turkey in 1831-1832 by an American / J.E.De Kay. – New-York: J.&J. Harper, – 1833.

[13]Убичини, А. Современное состояние Отоманской империи / А.Убичини. – СПб.: тип. О.И.Бакста. – 1877.

[14]Ладыженский, М. Взгляд на Европейскую Турцию и окрестности Константинополя в топографическом и военном отношении, с присовокуплением описания главнейших постановлений Оттоманской империи / М.Ладыженский. – СПб.: тип. Карла Крайя, – 1828.

[15]Смирнов, В. Турецкаяцивилизация, еяшколы, софта, библиотеки, книжноедело. Изпоездки в Константинопольлетом 1875 г. // – Спб.: ВестникЕвропы. Журнал истории, политики, литературы, – 1876. Том 6, Книга 9.

və Osmanlı İmperiyasının qanunları”(1807)[16], Böyük Britaniya səfiri Ceyms Porterin “Türkiyə, onun tarixi və tərəqqisi: on beş il səfir kimi Konstantinopol daxil edən Ser Ceyms Porterin jurnallarından və yazışmalarından” (1854)[17], macar şərqşünası Armin Vamberinin“Şərqin həyatı və adətləri haqqında oçerklər” (1876)[18], fransız diplomatı Edvard F. Engelhardtın “Tənzimat və Türkiyə”[19] adlı kitabı və başqabu kimi əsərlər türk ziyalılarının formalaşdığı ictimai-siyasi şəraiti anlamaq üçün dəyərli məlumatlar təqdim edir.

Dissertasiya mövzusunun tədqiqində eyni zamanda Azərbaycan, türk, ingilis, fransız və rus dillərində nəşr olnmuşgeniş elmi ədəbiyyatdan istifadə edilmişdir. Belə ki, türk alimlərinin bəzi fundamental əsərlərində, məsələn, Niyazi Berkesin “Türkiyədə çağdaşlaşma”[20],Halilİnalcik və Mehmet Seyitdanlıoğlunun “Tənzimat”[21],ReşatKaynarın “Mustafa Reşit Paşa və Tənzimat”[22], Osman Erginin “Türkiyəmaarif tarixi”[23],MehmetKaplanın “Mustafa Reşit Paşa və yeni aydın tipi”[24] adlı kitabındabir tərəfdən türk ziyalı təbəqəsinin formalaşması prosesinin ümumi, diər tərəfdən imperiyada baş verən geniş miqyaslı modernləşmə prosesinin bir parçası kimi, Tənzimat islahatlarına bağlı türk ziyalı təbəqəsinin

---

[16]Thornton, Th. The Present state of Turkey or a Description of the political, civil, and religious constitution, government, and laws of the Ottoman Empire / Th.Thornton. – London: J.Mawman, – 1807.

[17]Porter, J. Turkey; itshistory and progress: fromthejournals and correspondence of SirJamesPorter, fifteenyearsambassdor at Constantinople / J.Porter. – London: Hurst and Blackett, – 1854.

[18]Вамбери, Г. Очеркижизни и нравовВостока / Г.Вамбери. – Спб.: изд. В.Ковалевскаго, – 1876.

[19]Engelhardt. TanzimatveTürkiye / Engelhardt. – İstanbul: Kaknüsyayınları, – 2017.

[20]Berkes, N. The Development of Secularism in Turkey / N.Berkes. – London: C.Hurst& Co. Publishers, – 1998.

[21]İnalcık, H. Tanzimat. Değişimsürecinde Osmanlı imparatorluğu / H.İnalcık, M.Seyitdanlıoğlu – İstanbul: Türkiye İş Bankası KültürYayınları, – 2008.

[22]Kaynar, R. Mustafa Reşit Paşa veTanzimat / R.Kaynar. – Ankara: Türk TarihKurumuBasımevi. – 2010.

[23]Ergin, O. Türkiye Maarif Tarihi: [Cilt 1-2] / O.Ergin. – İstanbul: Eser Neşriyat, – 1977.

[24]Kaplan, M. Mustafa Reşid Paşa ve yeni aydın tipi // – Ankara: Mustafa Reşid Paşa veDönemiSemineriBildirileri, – 1985.

bəzinümayəndələrinin həyatı çərçivəsində ortaya çıxan təsviri verilmişdir. Bununla birlikdə, sözügedən prosesin daha dolğun hərtərəfli təsvirini yaratmaq üçün əlavə xüsusi ədəbiyyata müraciət etmək zəruriyətidə yaranmışdır.Belə ki, raşdırmanın bir sıra aspektlərinin öyrənilməsi üçün XIX əsrdə Türkiyədə incəsənət, mədəniyyət, ədəbiyyat və memarlığın müəyyən növlərinin tarixinə dair ixtisaslaşmış elmi ədəbiyyata da müraciət olunmuşdur. Məsələn, türk teatrı tarixinə, Türkiyədə aktyor sənətinin yaranması və inkişafına dair əsərlərdə gənc türk ziyalı təbəqəsinümayəndələrinin teatra gəlmək kimi yeni sosial-mədəni vərdişlərini, üstünlük verdikləri teatr tamaşaları və teatra dair formalaşan zövqlərini müşahidə etmək mümkündür.Bu baxımdan türk teatr və mədəniyyətinin tanınmış tədqiqatçısı Metin Andın fundamental araşdırmalarına müraciət olunmuş[25],türk ziyalı təbəqəsinin ayrı-ayrı nümayəndələrinin həyat və yaradıcılığı türk ədəbiyyatı tarixinin Tənzimat ədəbiyyatı çərçivəsində araşdırılmışdır[26]. Bu kontekstdə tanınmış türk ədəbiyyatşünası Mehmet Kaplanın[27] əsərləri də xüsusi önəm daşıyır.

Türk və Qərb təsviri sənətinin qarşılıqlı əlaqəsi, təhsil islahatlarının XIX əsrin gənc türk ziyalıları arasında yeni nəsil türk rəssamların yaranmasına təsiri məsələləri azərbaycanlı tədqiqatçı Etibar Məmmədovun “Türk karikaturası”[28] əsərində öz əksini tapmışdır. Yeni türk ziyalıların tək məmur deyil, eyni zamanda hərbi mühitdə formalaşması prosesinin təsviri tarix elmləri doktoru Tahsin Ünalın hərbi təhsil ocaqlarının tarixinə həsr olunmuş “Harpokulu tarixi”[29] adlı fundamental araşdırmasında yer almışdır. Eyni zamanda, XIX əsrdə türk ziyalı təbəqəsinin formalaşması prosesinə

---

[25]And, M. Başlangıcından 1983’e Türk TiyatroTarihi / M.And. – İstanbul: İletişimYayınları, – 2019; And, M. TanzimatveIstibdatDöneminde Türk Tiyatrosu / M.And. – Ankara: Türkiye İş Bankası KültürYayınları, – 1972.

[26]TanzimanEdebiyatı / haz. Z.Önder [ve b.]. – Ankara: HayatSağlıkveSosyalHizmetlerVakfı, Ankara Şübesi, EdebiyatAraştırmalarıKoordinatörlüğü, – 2017.

[27]Kerman, Z. Kaplan, Mehmet // – İstanbul:TDV İslâmAnsiklopedisi, – 2001. Cilt 24,

[28] Мамедов, Э.Г. Турецкая карикатура / Э.Г.Мамедов. – Баку: Элм, – 1992.

[29]Ünal, T. HarpOkuluTarihi/ T. Ünal. – Ankara: BerikanYayınevi. – 2001.

təsir göstərən xüsusi hadisələr Osmanlı imperiyasının siyasi tarixi çərçivəsində dəaraşdırılmışdır. Məsələn, İlbər Ortaylının "İmperatorluğun ən uzun yüzili"[30],Stanford Şounun "Osmanlı imperiyasının tarixi və müasir Türkiyə"[31],DonaldKuataertin "Osmanlı imperiyası 1700-1922"[32],GabonAgostonun "Osmanlı imperiyasının ensiklopediyası"[33], azərbaycanlı alim Fərux Şabanovun "Tənzimat dövründə Türkiyənin dövlət quruluşu və huquq sistemi"[34], Aron Noviçevın "Türkiyə tarixi. 4 cilddə"[35] adlı kitabında, eləcə də başqa müəlliflərin əsərlərində ölkənin modernləşməsində mühüm rol oynayan siyasi və sosial hadislərin əsas təsvirini tapmaq mümkündür. XIX əsrin əvvəlində türk və azərbaycanlı ziyalıların arasında mövcud olan əlaqələr haqqında məlumatları görkəmli Azərbaycan yazıcı-dramaturq Mirzə Fətəli Axundovun məktublarından[36]almaq olar. Dövrün önəmli şəxsiyyətləri ilə yazışmalarında böyük mütəfəkkir və maarifçi Osmanlı imperiyasına səfərindən qalan təəssüratlarından, Osmanlı elm cəmiyyətinin (Cemiyyet-i İlmiyye-i Osmaniyye) nümayəndələri ilə görüşündən bəhs edir. Azərbaycan və Türkiyənintanınmış ictimai və siyasi xadimi Əhməd bəy Ağaoğlunun qızı – Türkiyənin ilk vəkil-qadını Sürəyya Ağaoğlunun "Bir ömür böylegeçti"[37] adlı xatirə kitabı Azərbaycan və türk ziyalılarınındaha sonrakı – XIX əsrin

---

[30]Ortaylı, I. İmparatorluğun En Uzun Yüzyılı / I.Ortaylı. – İstanbul: TimaşYayınları. – 2014.

[31]Shaw, S. History of the Ottoman Empire and Modern Turkey: Volume 2, Reform, Revolution, and Republic: The Rise of Modern Turkey 1808-1975 / S.Shaw, E.K.Shaw. – Cambridge: Cambridge University Press, – 1977.

[32]Quataert, D. The Ottoman Empire 1700-1922 / D.Quataert. – Cambridge: Cambridge University Press, – 2005.

[33]Ágoston, G. Encyclopedia of The Ottoman Empire / G.Agoston, B.Masters. – New York: Facts On File, Inc. – 2009.

[34]Шабанов, Ф.Ш. Государственный строй и правовая система Турции в период Танзимата / Ф.Ш.Шабанов. – Баку: Наука, – 1967.

[35]Новичев, А.Д. ИсторияТурции II. Новоевремя. Частьпервая (1792-1839) / А.Д.Новичев. – Ленинград: ИздательствоЛенинградскогоуниверситета,– 1968.

[36]Ахундов, М.Ф. Избранные философские произведения / М.Ф.Ахундов, ред. Ш.Ф. Мамедова. –Баку:Азернешр, – 1982.

[37]Ağaoğlu, S. Bir ömür böylegeçti / S.Ağaoğlu. – İstanbul: İshakBasımevi, – 1975.

sonuna doğru yaranan nəslinin qarşılıqlı əlaqələrini izləməyə imkan verir. Bundan başqa, Betül Aslanın "Qardaş Yardımı və Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"[38], GülserenAkalının "Türkdüşüncə və siyasi həyatında Əhməd Ağaoğlu"[39], Əli Turanın "Əli-bəy Hüseynzadə"[40] və s. kimi mühüm tədqiqat işləri türk ziyalıların daha sonrakı nəslinin formalaşması, hər iki ölkənin milli ziyalı təbəqəsinin qarşılıqlı təsiri prosesini və bu prosesdə oynadığı rolu izləməyə imkan yaradır.

**Tədqiqatın obyekti və predmeti:**Təqdim olunan tədqiqatın obyekti XIX əsr Osmanlı cəmiyyətində türk ziyalı təbəqəsidir.

Tədqiqatın predmeti XIX əsrdə Osmanlı imperiyasında baş verən və türk zıyalı təbəqəsinin müstəqil sosial təbəqə kimi formalaşmasının ilkin şərtlərini təşkil edən, sosial və mədəni xarakter daşıyan proseslərdir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Təqdim olunan dissertasiya işinin əsas məqsədi XIX əsr türk ziyalı təbəqəsinin formalaşmasının ilkin ictimai-mədəni şərtlərini müəyyən etməkdir. Buməqsədlə qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

- XIX əsr Osmanlı cəmiyyətinin tarixi reallıqları kontekstində "ziyalı" anlayışının müəyyənləşdirilməsi;
- XIX əsrdə Osmanlı cəmiyyətinin modernləşməsi və ictimai-mədəni transformasiyası proseslərinin təhlili;
- XIX əsrdə türk ziyalı təbəqəsinin formalaşması və inkişafının əsas mərhələlərini ictimai-tarixi təhlil əsasında müəyyən edilməsi;
- XIX əsr Osmanlı cəmiyyətində türk ziyalı təbəqəsini xüsusi sosial təbəqəyə ayırmağa imkan verən səciyyəvi xüsusiyyətlərin müəyyən edilməsi;
- XIX əsr türk ziyalı təbəqəsinin formalaşmasının nəticələrinin üzə çıxarılması.

**Tədqiqat metodları:**Təqdim olunan dissertasiyanın mövzusu XIX əsr türk ziyalı təbəqəsinin formalaşmasının ilkin ictimai-mədəni

---

[38]Aslan, B. Kardaşkömeği (yardımı) veBaküMüslümanCemiyet-i Hayriyesi / – Ankara: Atatürk KültürMerkeziBaşkanlığıYayınları, – 2000.
[39]Akalın, G. Türk düşüncə və siyasi həyatında Əhməd Ağaoğlu / G.Akalın. – Bakı:AzAtaM, – 2004.
[40]Turan, A. Əli beyHüseynzade/ A.Turan. – Moskva: «Salam press»,– 2008.

şərtləri olduğundan, əsas diqqət bu təbəqəninXIX əsr boyu meydana çıxması və inkişafına xidmət edən tarixi, sosial, mədəni proseslərə yönəldilib. Elmi tədqiqatın dissertasiya işində tətbiq olunan əsas nəzəri metodları bunlardır: imperiyanın ictimai həyatında baş verən dəyişikliklər və islahat fəaliyyəti arasında səbəb-nəticə əlaqələrini müəyyən etmək üçün tarixçilik prinsipi; türk ziyalı təbəqəsinin formalaşma mərhələlərini müəyyən etmək üçün struktur-diaxronik üsul; müxtəlif ölkələrin milli ziyalı təbəqəsinin formalaşmasında oxşarlıqların müəyyən edilməsi üçünmüqayisəli təhlil üsulu; "ziyalı" məfhumunun ayrı-ayrı hissələrinin seçilməsi və öyrənilməsində tətbiq edilən təhlil metodu; bütün əvvəlki metodların nəticələrini birləşdirməyə imkan verən sintez. Bununla yanaşı, tətbiq olunan müqayisəli tarixi təhlil ayrı-ayrı hadisələr və hadisələr arasında səbəb-nəticə əlaqəsini müəyyən etməyə imkan yaratmışdır. İşdə yuxarıda göstərilən üsulların hamısı bir-biri ilə bağlıdır, bir-birini üzvi şəkildə tamamlayır və məqsədlərə cavab verir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

**1.** Türk ziyalıları birici ictimai təbəqə kimi Osmanlı cəmiyyətinin tarixi inkişafının obyektiv şərtləri nəticəsində yaranmış və təkamül etmişdir;

**2.** Türk ziyalı təbəqəsi böyük ölçüdə XIX əsrdə Osmanlı imperiyasının dünyada baş verən yeni tarixi şərait və çağırışlara uyğunlaşdırılması zərurətindən irəli gələn daxili transformasiya və islahatların məhsuludur;

**3.** Formalaşmaqda olan türk ziyalı təbəqəsinin özü Qərbin təsiri ilə Osmanlı cəmiyyətində yayılan və orta əsrlərdən miras qalmış ənənəvi dəyərlər sistemindən fərqlənən yeni dünyagörüşün, ideya vəbiliklərin daşıyıcısı və yayıcısı idi;

**4.** Türk ziyalı təbəqəsi nümayəndələri tərəfindən mənimsənən yeni biliklər əsasən Qərb mədəniyyəti ilə təmas nəticəsində bu mədəniyyətin nailiyyətlərinin alınaraq gələcək tətəhsil ocaqlarında yeni üsullu təhsil kimi tətbiq edilməsi zərurətindən irəli gəlirdi;

**5.** Ziyalılar, sadəcə onları cəmiyyətin müstəqil təbəqəsi statusuna salan və digər, daha ənənəvi təbəqələrindən, zahirən və daxilən fərqləndirən sosial-mədəni həyatın yeni standart və normalarına yiyələnməklə kifayətlənməyib, həm də bütün cəmiyyəti

müasirləşdirmək  missiyasının daşıyıcısına çevrildi;

**6.** XIX əsrdəyeni türk ziyalılarının formalaşması prosesi nə daxili amillərlə yanaşı, Qərb ölkələrinin siyasi, iqtisadi və mədəni üstünlüyünün artması və əksinə, Osmanlı imperiyasının böyük ölçüdə dünya capitalist sisteminin periferiyasına çevrilməsi ilə bağlı beynəlxalq amillərdə ciddi təsir göstərmişdir;

**7.** XIX əsrdə türk ziyalı təbəqəsinin formalaşması və inkişafı baxımından üç əsas mərhələni ayırd etmək olar ki, bunlarında hər biri müəyyən sosial təbəqənin təkamülünün müəyyən dərəcəsinə uyğundur  və üç əsas nəsil–bu əsrin əvvəli, ortası və sonu ilə təmsil olunur.

**Tədqiqatın elmi yeniliyi:** Təqdim olunan tədqiqatın elmi yeniliyi XIX əsrdə Osmanlı cəmiyyətində müxtəlif daxili və xarici amillərin təsiri altında yaranan türk ziyalı təbəqəsinin ilkin şərtlərinin və formalaşma prosesinin hərtərəfli araşdırılmasında, bu prosesə aid qanunauyğunluqların müəyyən edilməsində ifadə olunur. Türk və dünya tarixşünaslığında türk ziyalı təbəqəsinin formalaşmasınınmüxtəlif aspektlərinə həsr edilmişbir sıra əsərlər yazılmışdır. Lakin XIX əsr türk ziyalılarıbir məfhum kimi tədqiqatçıların əsərlərində Tənzimat islahatlarının və ölkənin modernləşməsi prosesinin tədqiqi çərçivəsində əlavə obyektlərdən biri kimi çıxış edir. Təqdim olunan dissertasiyada ilk dəfə olaraq əldə olunan məlumatların analizi və ümumiləşdirilməsi aparılaraq, XIX əsrdə Osmanlı imperiyasında yaranan türk ziyalı təbəqəsinin müstəqil araşdırma obyekti kimi yaranması və inkişafının ilkin şərtləri, aparılan ictimai-mədəni islahatlar kontekstində türk ziyalıların keçdiyi yolların daha əhatəli və müfəssəl şəkildə işıqlandırılmasına cəhd edilmişdir. Müstəqil tədqiqat obyekti kimi bu təbəqənin formalaşmasının ilkin şərtlərinin, yaranması və inkişafı prosesinin öyrənilməsi məsələsinin qaldırılması təkcə Azərbaycan şərq tarixşünaslığında deyil, tədqiqat ədəbiyyatında da yenidir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti:**Bu tədqiqatın nəticələri XIX əsr Osmanlı tarixinə, milli ziyalı təbəqəsinin formalaşmasına, “modernləşmə” və “avropalılaşma” proseslərinə dair məsələləri daha dərindən araşdırmaq üçün istifadə edilə bilər. Tədqiqat materiallarından XIX əsrin Osmanlı imperiyasının və onun

əhatə etdiyi ərazilərin, həmçinin onunla həmsərhəd olan, ticarət və diqər əlaqələrdə olan ölkələrin ictimai, mədəni tarixinə həsr olunmuş tədris proqramlarının hazırlanmasında da istifadə etmək olar.

**Aprobasiyası və tətbiqi:** Dissertasiya işinin əsas müddəaları və nəticələri 6 elmi məqalə və 4 tezisdə öz əksini tapmışdır. Bunlardan 5 məqalə Azərbaycanın elmi jurnallarında, 2 tezis Respublika elmi-prakrik konfransların, 2 tezis beynəlxalq elmi konfransların materialları toplusunda dərc edilmişdir. Bir məqaləisə Rumınıya Respublikasının Türkologiya İnstitutunun elmi nəşrində çapolunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**. Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının akademik Z.M. Bünyadov adına Şərqşünaslıq İnstitutunun "Türkiyə tarixi və iqtisadiyyatı" şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələri daxil olmaqla ümumi həcmi.** İş mündəricat, giriş, 3 fəsil, nəticə və istifadə olunan ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın ümumi həcmi probelsiz 214 539 (istifadə olunmuş ədəbiyyat siyahısı və titul vərəqi istisna olmaqla) işarə təşkil edir. Mündəricat – 1825 işarə, Giriş – 15463 işarə, Fəsil I – 68619 işarə, Fəsil II – 71331 işarə, Fəsil III – 53215 işarə, Nəticə – 4086 işarə.

## II. DISSERTASIYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin strukturu tədqiqatın məqsəd və vəzifələrinə uyğun olaraq Giriş, üç fəsil, Nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığının əsaslandırılması və onun işlənmə dərəcəsi əks olunmuş, tədqiq olunan mənbələrin və ədəbiyyatın ümumiləşdirilmiş icmalı və xarakteristikası verilmişdir. Burada tədqiqatın obyekti və subyekti, məqsəd və vəzifələri, habelə tədqiqat metodları müəyyən edilmiş; müdafiənin əsas müddəaları 7 tezisdə öz əksini tapmış; tədqiqatın elmi yeniliyinin əsaslandırılması, nəzəri və praktiki əhəmiyyəti verilmiş; işin aprobasiyası və tətbiqi, dissertasiyanın müdafiəyə

təqdim olunduğu təşkilat göstərilmiş; sonda struktur bölmələrin həcmi və işlərin ümumi həcmi barədə məlumat verilmişdir.

Təqdim olunan dissertasiya işinin **I Fəsli"Osmanlı imperiyasındaislahat hərəkatları"** adlanır və üç paraqrafdan ibarətdir. Bu fəsil XIX əsrinəvvələrinə doğru Osmanlı imperiyasında hökm sürən sosial-iqtisadi, siyasi və mədəni şəraitin xüsusiyyətlərinin, ilk islahat təşəbbüslərinin və onların imperiya və cəmiyyət üçün nəticələrinin təhlilinə həsr edilmişdir.

Məlum olduğu kimi, XIX əsrin əvvəllərində Osmanlı imperiyasında yaranan ictimai-siyasi vəziyyət dövlət böyüklərinin dərin narahatlığına səbəb olmuş və onlara ölkənin digər güclü dünya dövlətlərindən geri qaldığını açıq şəkildə hiss etdirməyə başlamışdır. Əvvəlki əsrlərdə öz hərbi üstünlüyünə inam, nisbi iqtisadi müstəqillik və bütün əsas ehtiyaclarını qarşılamaq qabiliyyəti Osmanlı hakimiyyətinin digər güclərlə fəal əməkdaşlığa ehtiyac duymamasına, imperiyanın müəyyən dərəcədə "təcrid" siyasətiyürütməsinə səbəb olmuşdur. Lakin sonradan aparıcı Qərb dövlətlərinin hərbi və iqtisadi qüdrətinin sürətlə artması, müstəmləkəçilik ekspansiyalarının genişlənməsi, Osmanlı imperiyasının iqtisadi və hərbi sahədə tədricən geriləməsi və müvafiq olaraq, onun sonrakı qaçılmaz hərbi məğlubiyyətləri imperiya idarəçilərinibeynəlxalq vəziyyətin dəyişməsinə daha çox diqqət yetirməyə və öz uğursuzluqlarının səbəblərini axtarmağa məcbur etdi.

**I Fəslin birinci paraqrafı"XVIII-XIX əsrlərdə Osmanlı imperiyasında erkən islahat hərəkatları"** adlanır və Osmanlıda hakim sinfin bir hissəsinin Qərb üslubunda hərbi və qismən ictimai-siyasi dəyişikliklərə ehtiyac olduğunun dərk etməsi prosesinin başlamasından və onların bu istiqamətdə göstərdikləri ilk cəhdlərindən bəhs edir. Bu cəhdlər bir sıra risalələrdə - elmi traktatlarda öz əksini tapmışdır. Qeyd etmək lazımdır ki, bu risalələr ölkədə mahiyyətini cəmiyyətin "modernləşmə"sini təşkil edəcək gələcək əsaslı islahatlar prosesinin intellektual bünövrəsini qoymuşdur. Risalələrdəölkənin geri qalma səbəbləri təqdim olunmuş və onlardan ən əsası kimidigər ölkələr haqqında "məlumatsızlıq" və ordunun zəif təşkili göstərilmişdir. Bu nöqsanları aradan qaldırmaq

üçün XVIII əsrin ikinci yarısında dünya dövlətlərinin paytaxtlarına səfirliklər göndərilmiş və bəzi islahatların aparılmasına cəhd edilmişdir. Bu addımlar beynəlxalq münasibətlər sisteminə və Osmanlı imperatorluğunun bu sistemdəki yerinə yeni baxışın yaranmasına yol açmış, cəmiyyətin ənənəvi həyat tərzinə baxışının transformasiyasına, yəni "avropalaşma"sına, gətirib çıxarmışdı.

**I Fəslin "Tənzimat islahatlarına qədər türk cəmiyyətində "avropalaşma" nümunələri"** adlı **ikinci paraqrafında**Osmanlı cəmiyyətində "modernləşmə" və "avropalaşma"nın bir anda baş vermədiyini, cəmiyyətin inkişafı və ölkənin dünyaylamünasibətlərindən asılı olaraq tədricən baş verdiyini göstərən misallar diqqətə çatdırılmışdır.

Məlumdur ki, ticarət əlaqələri hələ imperiyanın ilk dövrlərindən müxtəlif Avropa xalqlarının nümayəndələrini Osmanlıya cəlb etmişdir. Bura gələn hər kəs özü ilə yeni adət-ənənələr, əşyalar və mədəniyyət nümunələri gətirmişdir ki, bu da qarşılıqlı mədəni təsirə şərait yaratmışdır. İstər zabit, silah ustası, mühəndis,istərsə də digər müxtəlif sahələr üzrə bir çox mütəxəssis (məsələn, geniş yayılmış faktdır ki, Fateh sultan II Mehmed (1432-1481) Konstantinopolu fəth etdiyi vaxtda macar silah mühəndisi Urbanı öz ordusuna dəvət etmiş və Urbanonun üçün Bazilika adlı məşhur topuhazırlamışdır.Eyni zamandaxidmətçilər, sadə sənətkarlar və ya tacirlər Osmanlı imperiyasına gəlib ölkənin müxtəlif bölgələrində məskunlaşaraq, orada yaşamağa davam etmiş, yerli əhali arasında öz bilik və adət-ənənələrini yaymışlar. Lakin Osmanlı cəmiyyətində çox ləng baş verən ilk dəyişikliklər və insanların ənənəvi həyat tərzini XVIII əsrin sonuna qədər qoruyub saxlamaq istəyi "yerdə" baş verən modernləşməni dövlət miqyasında demək olar ki, görünməz edirdi. Yalnız XVIII əsrin sonlarında, Avropada yeni texniki ixtiralarla yanaşı, nisbətən daha çox və daha sürətli istehsal olunan sənaye məhsullarının, ilk qatarların, buxarla işləyən gəmilərin və dəzgahların meydana çıxması ilə dünyanın özü daha böyük sürətlə dəyişməyə başlaması və eyni dəyişmə sürətinin Osmanlı imperiyasından gözlənilməsi, onun bu dəyişikliklərə ayaq uydurmaq zərurətini ortaya qoymuşdu. Cəmiyyəti kökündən dəyişdirmək üçün ilk cəhd XVIII əsrin sonlarında Sultan III Səlim

tərəfindən edilsə də, cəmiyyət yalnız II Mahmudun dövründə XIXəsrin əvvəllərində özünü xarici stimullara cavab verməyə hazır hiss etmişdi.

**I Fəslin "İlk türk ziyalı təbəqəsinin formalaşmasında təhsilin təsiri"** adlı **üçüncü paraqrafında**XIX əsrin əvvəllərində Osmanlı imperiyasında modernləşmə prosesi çərçivəsində həyata keçirilən ilk islahatlardan biri– təhsil islahatı və onun nəticəsi kimi birinci nəsil türk ziyalı təbəqəsinin meydana gəlməsiaraşdırılmışdır.

XVIII əsrin sonlarında Osmanlı imperiyasında formalaşan yeni ictimai-siyasi şərait cəmiyyətdə "yeni bilik"lərə sahib olmaq ehtiyacını yaratmış və bu ehtiyac ölkə rəhbərliyini mövcud ənənəvi təhsil sisteminə yenidən baxmağa sövq etmişdi. "Militarist xarakter daşıyan"[41] imperiya bütün ərazi, iqtisadi və sosial sarsıntıların, eləcə də hərbi məğlubiyyətlərin səbəbini ordunun zəifləməsində gördüyü üçün ilk olaraq islahatları hərbi sahədə aparırdı. Dünyəvi elmlər, xüsusən həndəsə, triqonometriya, ballistika və rəsmxətt sahəsində praktiki biliklərin tədris olunduğu yeni təhsil müəssisələri açılmağa başlamışdı. Məsələn, 1775-ci ildə hərbi sənayenin müxtəlif texnologiyalarını öyrədən AdmirallıqRiyaziyyat Məktəbi (*Hendesehane*) meydana çıxdı. Sonralar bu tədris ocağı Admirallıq Mühəndislik Məktəbi (*TersaneMühendishanesi*) kimi tanındı və artıq 1806-cı ildə İmperatorluq Dəniz Mühəndisliyi Məktəbi (*Mühendishane-i Bahri-iHümayun*) adını aldı; yaxud 1790-cı ildəSultan III Səlimin fərmanı ilə ilk mühəndislik məktəbi – "*Mühendishane-i Sultani'ye*"açılmışdı. Bu məktəb 1793-cü ildən İmperatorluq Hərbi Mühəndislik Məktəbi (*Mühendishane-i Berri-i Hümayun*) olaraq adlandırılmağa başlamışdı. Bundan əlavə, 1793-cü ildə başqa bir mühəndislik məktəbi – Yeni Mühəndislik Məktəbi (*Mühendishane-i Cedid*)meydana çıxdı. Beləliklə, adıçəkilən məktəblərdə bilikləri sonradan təkcə hərbi deyil, mülki həyatda da tətbiq olunan mütəxəssislər yetişdirilirdi. XIX əsrin ikinci yarısında həmin məktəblərin məzunlarının çoxu sənaye müəssisələrinin tikintisində, teleqraf şəbəkəsinin yaradılmasında, dəmir yollarının çəkilişində iştirak etmişlərdi. Onların təcrübəsinə əsaslanaraq

---

[41]Ünal, T. HarpOkuluTarihi/ T. Ünal. – Ankara: BerikanYayınevi. – 2001., стр. 1.

Teleqraf Məktəbi və Sənaye Məktəbi açılmışdı. 1874-75-ci illərdə İmperator Universitetinin (*Darülfünun-ı Sultani*) filialı olaraq ilk İnşaat Mühəndisliyi Məktəbi (*MülkiyeMühendisMektebi*) qurulmuş,1839-cu ildə isə İmperator Tibb Məktəbi (*Mekteb-i Tibbiye-i Adliye-i Şahane*) açılmışdı.

XIX əsrin birinci yarısında, Tənzimat islahatları illərində hərbi mühafizəkarlar (konservatorlar) təhsil sahəsində ilk islahatların nəticələrini böyük cəhdlə ləğv etməyə çalışsalar da, sonralar məhz bu hərbi təhsil ocaqları imperiyada mülki təhsilin gələcək inkişafı üçündə möhkəm zəmin formalaşdırmışdı. Belə ki, hərbi təhsil müəssisələrinin məzunları gələcək dünyəvi məktəblərə müəllim vəzifəsinə təyin edilirdilər. Türk ziyalılarının bir sıra nümayəndələri, məsələn, publisist İhsanTokgöz və ya yazıçı Halit Ziya Uşaklıgilməktəb illərinin xatirələrində riyaziyyat, fizika və təbiət elmləri müəllimləri haqqında yazdıqları qeydlərdə onları hərbi xidmətlə yanaşı dünyəvi məktəbdə dərs deyən hərbçilər kimi təqdim edirlər.

İslahatların növbəti mərhələsində dövlət müasir formada, dövrün problemlərini həll etməyə qadir olan yeni təhsilli bürokratiya yetişdirmək vəzifəsini qarşısına qoymuşdu. Yeni təhsil müəssisələri və dövlət strukturları ilə yanaşı, XIX əsrin birinci rübündən etibarən Sultan II Mahmudun təşəbbüsü ilə gənc osmanlılar dövlət hesabına xaricə təhsil almağa göndərilməyə başlamış və 1830-cu ildən bu proses artıq dövlət siyasətinə çevrilmişdir. Eyni zamanda, sultanın şəxsi təşəbbüsü ilə tezliklə mühəndislik məktəbinin keçmiş müəllimi YehyaEfendinin rəhbərlik etdiyi Tərcüməçilər Bürosu – “Tərcümə odası” yaradıldı. YehyaEfendininvəzifəsinə təkcə rəsmi sənədlərin tərcüməsi deyil, həm də türk gənclərindən yeni tərcüməçilər yetişdirmək daxil idi. Beləliklə, imperiyada tədricən xarici, xüsusən də Avropa dillərinin öyrənilməsi geniş vüsət aldı. Bu da sonradan xarici ədəbiyyatı oxumaq vərdişi gətirdivə imperiyada ənənəvi həyat tərzinə dair yeni fikirl və baxışlar formalaşdırmağa başladı.

Sosial sahə ilə yanaşı, təhsil islahatının bəhrələrimədəniyyətdə, xüsusən təsviri incəsənətdədə özünü göstərdi. Beləliklə, XIX əsr Osmanlı rəssam-avanqardistlərin əksəriyyətinin hərbçilər arasından çıxdığı məlumdur. Bu, həmin rəssamların hərbi xidmətdə olarkən və

ya hərbi xidmətə hazırlaşarkən məşğul olduklarıfəaliyyətlərin xarakterinə uyğun həndəsə, kartoqrafiya və rəsmxətt elmlərini öyrənmələri ilə bağlıdır ki, bu elmlərin gətirdiyi biliklər miniatür sənətinin ənənəvi modellərini qıran bir rəsm texnikası ilə onları tanış etmişdi. Peşə təhsili almaq üçün Fransaya göndərilən zabitlərdən bəziləri yağlı boyayla işləmək texnikası haqqında biliklərlə vətənə qayıdırdılar. Bu yolla imperiyada rəssamlığa maraq oyanırdı. XIX əsrin ikinci yarısında Sultan Abdülaziz iki rəssamı – keçmiş hərbçiləri – Süleyman Seyid bəyi və Ahmed paşanı oxumaq üçün Fransaya göndərir. 18 yaşında hüquq təhsili almaq üçün Parisə gedən Osman Hamdi bəyin (1842-1910) də Osmanlı imperiyasında təsviri sənətin yayılmasında xüsusi rolu olmuşdur. Peşəsinə yiyələnərək o, eyni zamanda təsviri sənətin əsaslarını da fəal şəkildə öyrənmişdi. Vətənə qayıtdıqdan sonra1882-ci ildə Osman Hamdi bəy təsviri sənət məktəbinin yaradılmasının təşəbbüskarı olur. Sonradan bu məktəb İncəsənət Akademiyasına, 1983-cü ildə isə Memar Sinan Universitetinə çevrilir. İndi bu təhsil müəssisəsi Memar Sinan Gözəl Sənətlər Universiteti (Memar SinanGüzelSanatlar Universiteti) adlanır.

Beləliklə, təhsildə aparılan islahatlar, yeni məktəblərin yaranması, dünyəvi elmlər sahəsində biliklərə yiyələnmək, əcnəbi müəllimlərlə ünsiyyət, üstəlik, Osmanlı gəncinin xaricə müntəzəm səfərləri imperiyaya böyük həcmdə “yeni bilik”lərin axınını təmin etmişdi. Müasir təhsilli insanların sayının artması, müxtəlif fəaliyyət sahələrində əcnəbilərlə təmasların dairəsinin genişlənməsi, xaricdən ilk məzunların yeni məişət vərdişləri və baxışlarla vətənə qayıtması ilə Osmanlı cəmiyyətinin siması get-gedə dəyişirdi.

Bu dəyişiklik, təqdim olunan araşdırmanın üç paraqrafdan ibarət olan **“Osmanlı cəmiyyətinin ictimai və mədəni transformasiyası”** adlı **II Fəslində**öz əksini tapmışdır.

**II Fəslin**“**Alafranqa” və “Alaturka” kateqoriyalarının yaranması”**adlı **birinci paraqrafı** ənənəvi Osmanlı cəmiyyətində “alafranqa” və “alaturka” kimi sosial qrupların formalaşma prosesinə həsr edilmişdir. “Alafranqa” sözü türkləşdirilmiş“a lafranque” – “frenksayağı” mənasını daşıyan sözdür. Avropanın müxtəlif xalqlarından olan səfirliklərin, konsulluqlarınişçilərindən,

draqomanailələrindən və tacirlərdən ibarət İstanbulun “firəng” cəmiyyəti ənənəvi Osmanlılardan fərqli həyat tərzinə sahib idi. Buna görə, davranışlarını, əyləncələrini, görünüşlərini və s. təcəssüm etdirən hər şey xalq tərəfindən “a la Frank” – “firəngi” sözü ilə təyin edilmişdir. Sonralar onların ədəb-ərkanı yerli əhali tərəfindən mənimsənilməyə başlayanda onları təqlid edənləri də bu epitetlə çağırmağa başlamışlar. Bu o deməkdir ki, “frank”ların həyatının müəyyən “atribut”larına sahib olmaq ənənəvi osmanlını “firəngiyə” çevirirdi. Və əksinə, buna uyğun olaraq, ənənəvi həyat tərzinə sadiq qalanlara “alaturka” deyilirdi.

XIX əsrin ikinci yarısındabaş verən transformasiya həm də tədricən dəyişən cəmiyyətə yeni davranış qaydaları da gətirmişdi. “Alafranqa” həyat tərzinə keçid türk ziyalıları qarşısına əvvəllər məlum olmayan Avropa etiketi ilə tanışlıqkimi yeni bir vəzifə qoymuşdu. Ənənəviosmanlı cəmiyyətinin yeni qərb vərdişləri ilə tanışlığına və bu vərdişlərin mənimsənməsinə **“Yeni etiket”** adlı **II Fəslin ikinci paraqrafı**həsr edilmişdir.Osmanlının XIX əsrin ortalarına qədər əsas ictimai həyatı böyük ölçüdə öz evinin hüdudları daxilində keçirdi. Bu səbəbdən, ilk növbədə dəyişikliklər məişətdən, gündəlik həyat tərzindən və ənənəvi Osmanlı evinin quruluşundan başlamışdır. Belə ki, Avropa formalarının Osmanlı evinin gizli dünyasına daxil olması Avropa mebellərinin istifadəsi, otaqların yeni quruluşu və daxili dekorasiyanın dəyişdirilməsi ilə başladı. Bu dəyişikliklərinən parlaq nümunəsi Osmanlı evi üçün ənənəvi olan “sələmlıq” otağının Qərb tipli “salon”a çevrilməsi hesab edilə bilər. Bundan sonra qonaqlar təkcə yüngül əyləncə üçün deyil, həm də aktual xəbərləri və hadisələri müzakirə etmək üçün toplaşmağa başladılar. Beləliklə, Osmanlı imperiyasına “salon” (“məclis”) mədəniyyəti gəldi ki, bu da “firəngi” həyat tərzinin ayrılmaz tərkib hissəsi olaraqXIX əsrin ortalarından Osmanlı imperiyasında fəal şəkildə inkişaf etməyə başladı.

**II Fəslin “Osmanlı cəmiyyətində yeni ictimai-mədəni davranış normları”** adlı **üçüncü paraqrafı** gənc Osmanlı cəmiyyətində meydana çıxan yeni sosial-mədəni vərdişlərdən bəhs edir. Yuxarıda qeyd olunan dəyişikliklərlə yanaşı, imperiyaya teatra getmək, bədii ədəbiyyat oxumaq, mətbuat orqanları buraxmaq və s.

kimi Qərb cəmiyyətləri üçün kifayət qədər xarakterik olan ictimai vərdişlər də idxal olunmuşdur.

XIX əsrin əvvəllərində xarici dillərin öyrənilməsi ilə bərabər xarici ədəbiyyata maraq da artdı. Bu kitablardan əxz olunan yeni fikirlər, ölkənin o vaxt dəbdə olan intellektual “salon”larında aparılan müxtəlif fəlsəfi söhbətlər və müzakirələr bəzi hallarda gənc türk ziyalılarına böyük təsir etmiş, onlarda fəaliyyət göstərmək həvəsinə səbəb olmuşdur.Bunun üçün ziyalı təbəqəsinin nümayəndələri fərqli müasir sosial və fəlsəfi mövzularda müzakirələrin aparılması üçün intellektual salonlar və “elmi cəmiyyət”lər, gecələr və görüşlər təşkil edirdilər. Zaman keçdikcə bu salonlarda xalqın hər bir fərdinin təhsiləcəlb edilməsi problemi, yəni ümumi təhsil məsələsi getdikcə daha geniş müzakirə olunmağa başladı və problemin həlli üçün əsas “alət” kimi maarif seçilmişdi. İlk kiçik addım Qərb müəlliflərinin əsərlərinin tərcüməsi və qəzetlərdə məqalələrin dərci oldu. Bu addımla daha çox insan yeni biliklərə sahib ola bilərdi. Qərb ədəbiyyatının əsərlərinin tərcümələri ilə türk ədəbiyyatına yeni janrlar daxil oldu. Əvvəllər ənənəvi Osmanlı divan ədəbiyyatına məlum olmayan roman, hekayə, pyes, tənqidi məqalə, xatirələr və məktublar kimi janrlar sonralar cəmiyyətin sosial-mədəni vərdişlərində yaranan dəyişikliklərin aparıcı səbəblərinə çevrildi. Məsələn, müasir problemləri daha geniş auditoriyaya çatdırmaq istəyi Tərcüməçilər Bürosunun tələbəsi olan AgahEfendini Osmanlı imperiyasında türkcə ilk özəl qəzet olan “Tercüman-ı Ahvâl ”ı açmağa sövq etdi. Ondan sonra ziyalıların bir çox gənc nümayəndələri öz şəxsi mətbuat orqanlarını nəşr etməyə başladılar. Beləliklə mətbuat maarifləndirici, innovativ ideyaların səsləndiyi platformalardan birinə çevrilmişdir.

Digər platforma isə teatr idi. Teatr “ictimai şüurun forması” və “gerçəkliyin əks etdirilməsinin bədii yolu”[42]kimi Osmanlı imperiyasındainkişafın ilkin mərhələsində sadə xalq arasında yeni bilik və baxışların yayılmasının daha bir ailəti idi.Qəzet və kitab oxumaq müəyyən bacarıq və səriştə tələb edirdi, lakin islahatlara

---

[42]Театральнаяэнциклопедия: [в 6 томах] / подред. А. П. Маркова. – Москва: Советскаяэнциклопедия, – т. 5. –1967., стр. 89

vəayrı-ayrı şəxslərin səylərinə baxmayaraq, XX əsrin əvvəllərinə qədər əhalinin hələ də çox az bir hissəsi buna sahib idi. Halbuki, “göstəri” sənətlərinin ölkədə köklü ənənələri var idi. Məsələn, Qaragöz kölgə teatrı və “orta oyunu” xalq tamaşaları imperiyada XIX əsrdən çox əvvəl mövcud olmuş və uzun əsrlər boyu xalq fikirlərinin “ruporu” rolunu oynamışdır. Tezliklə o dövrün görkəmli ictimai xadimlərinin, məsələn, İbrahim Şinasi, Namık Kamal, AhmedVefiq Paşa, Samipaşazade Sübhi və başqalarının sayəsində türk dilində pyeslər meydana çıxdı ki, bu da sözügedən yeni sənət növünə xalq arasında marağı artırmışdı. Səhnə üçün kifayət qədər əsərin meydana çıxması sonradan Qərb üslublu teatrın yaradılması məsələsini gündəmə gətirdi. Yeni xüsusi teatr binalarının inşası ilə Osmanlı imperiyasında da Qərb cəmiyyətinin teatrlara getmə ənənəsi inkişaf etməyə başladı. Bundan sonra ölkənin böyük şəhərlərində, xüsusilə İstanbulda, Bursada, İzmirdə müntəzəm tamaşalar qoyulur, truppalar yaradılır, əsərlər yazılırdı. Beləliklə, türk ziyalılarının yeni sosial-mədəni vərdişləri türk cəmiyyətinin transformasiyasında yeni mərhələ açmış, xüsusi bir şəxsiyyət tipinin – türk ziyalısının formalaşması üçün ilkin şərtlər rolunu oynamışdır.

Təqdim olunan dissertasiya işinin **III Fəsli “Türk aydınının şəxsiyyəti”** adlanır və üç paraqrafdan ibarətdir. Bu fəsil türk ziyalı təbəqəsi nümayəndəsinin şəxsiyyətinin formalaşmasının ilkin şərtlərindən, mərhələlərindən və xüsusiyyətlərindən bəhs edir.

**III Fəslin“Xatirə əsərlərində türk ziyalısının şəxsiyyətinin formalaşma prosesi”** adlı **birinci paraqrafı** türk ziyalısının şəxsiyyətinin formalaşma mərhələlərini birinci şəxsin gözündən izləməyə imkan verir. Məlumdur ki, XIX əsrin birinci yarısında Osmanlı imperiyasında aparılan islahatlar, yeni ictimai-siyasi proqramların işlənib hazırlanması, yeni ictimai-mədəni hadisələrin meydana çıxması, yeni ədəbiyyatın və ideoloji-siyasi cərəyanların təşəkkülü, eləcə də bütün bunlardan qaynaqlanan xüsusi ictimai davranış növünün ortaya çıxması, o dövrün Osmanlı şəxsiyyətinin formalaşmasında xüsusi istiqamətin yaranmasına səbəb olmuşdur. Şəxsiyyətin formalaşması sosial mühitin, xarici amillərin təsiri altında inkişafı və formalaşması prosesidir; “tərbiyə və təlimin təsiri altında şəxsiyyətin və ya onun hər hansı cəhətlərinin, keyfiyyətlərinin

məqsədyönlü inkişafı, ictimai münasibətlərin subyekti və obyekti kimi şəxsiyyətə çevrilmə prosesi"dir[43]. Hər hansı bir insanın, o cümlədən tarixi şəxsiyyətin formalaşması prosesinin izlənilməsinin ən asan yolu memuar ədəbiyyatı əsərlərinin köməyinə müraciət etməkdir. Belə ki, müəlliflər adətən öz avtobiografiyalarında, gündəliklərində, xatirələrində və s. çox vaxt hərəkətlərinin gizli motivləri, daxili aləmlərinə güclü və ya xüsusi təsir göstərmiş hadisələr barədə, həyat yollarını seçmək və ya dəyişmək məcburiyyətində qoyan qarşılaşdıqları insanlar və ya proseslər haqqında məlumatları oxucularla bölüşürlər. Bütün bunlar isə bizə məlum hadisələrə yeni prizmadan baxmağa və rəsmi sənədlərdə çox vaxt öz əksini tapmayan məlumatlarlatamamlanan mənzərəni görməyə imkan verir.

Osmanlı ədəbiyyatında memuar bir janr kimi ancaq XIX əsrin ikinci yarısından etibarən meydana çıxmışdır. İlk dövrlərdə qabaqcıl türk ziyalıları çağdaş tarixi hadisə və prosesləri təsvir edən əsərlər nəşr etdirir, bu əsərləri öz şərh və baxışları ilə zənginləşdirirdilər. Belə əsərlərdə əsas rolu hadisələrin özü oynayır, müəlliflərin şəxsiyyətləri isə yalnız hadisələrə baxmaq üçün prizma rolunda çıxış edirdi.Zaman keçdikcə və janrın inkişafı ilə memuarlarda hekayənin xarakteri də dəyişir. İndi yeni növ memuarlarda əsas rolu ziyalının şəxsiyatinin formalaşması onayır, tarixi hadisələr isəziyalının şəxsiyyətinin formalaşmasını müşayiət edən amillər kimi göstərilməyə başlayırdı. XIX əsrdə Osmanlı cəmiyyətinin inkişafının müxtəlif mərhələlərində türk ziyalı təbəqəsinin nümayəndələrinin şəxsiyyətinin formalaşmasının mərhələlərini və ilkin şərtlərini öyrənmək üçün ikinci növ memuar ədəbiyyatı əsərləri daha qiymətli mənbələrdir.

**III Fəslin"Tənzimat dövründən XIX əsrin sonlarına qədər türk ziyalılarının müxtəlif nəsillərinin şəxsiyyətinin formalaşmasının ilkin şərtləri"** adlı **ikinci paraqrafında**XIX əsr türk ziyalılarının üç əsas nəslindən bəhs edilir. Beləliklə, Tənzimat

---

[43]Ермолаев, Ю.В. Формирование личности в контексте педагогической антропологии // – Москва: Фундаментальные исследования, – 2006. № 2, стр. 45

islahatlarının təşəbbüskarı, “Gülxanə xətt-i Şərif”in müəllifi Mustafa Reşid Paşa ədəbiyyatda yeni formalaşan türk ziyalılarının ilk nümayəndəsi kimi təqdim olunur. O, ətrafına türk gəncliyinin ən istedadlı nümayəndələrini toplayır və söhbətlərində sonradan islahat layihəsinin əsasını təşkil edəcək ictimai ənənələrdə bəzi dəyişikliklərin zəruriliyini izah edirdi. Bu gənclər sonralar Tənzimat ideyalarının fəal tərəfdarı və yayıcısına çevrilərək yeni yaranan türk ziyalılarının ilk nəslini təşkil edəcəkdilər.

Estafetin gələcək nəslə ötürülməsi üçün yeni üsullu məktəblər açılacaq, burada yeni nəsil ziyalılar yetişəcək və ölkənin ehtiyaclarına bu nəslin öz baxışları olacaq. Məlumdur ki, XIX əsrin ortalarında imperiyanın siyasi həyatında konstitusiyalı monarxiya və bu tipdigər tələblər yaranmış, həmin tələblərin əsas daşıyıcıları və yayıcıları isə ikinci nəsil türk ziyalıları olmuşdur. Sonralar, XIX əsrin fikirləri ilə yetişən yeni nəsil türk ziyalısı yaranacaqdı ki, bu nəsil də öz tələblərində daha da irəli gedəcək və XX əsrin əvvəllərindəTürkiyə Cümhuriyyətini yaradacaq gədər müasir və dünyəvi olacaqdı. Qeyd etmək lazımdır ki, XIX əsrin sonlarında Osmanlı imperiyasında ictimai-siyasi fikrinin inkişafında Azərbaycan ziyalılarınında mühüm rolu oynayacaqdı.

**III Fəslin üçüncü paraqrafı**XIX əsr Azərbaycan və türk ziyalılarının münasibətlərinə həsr olunmuş və buna uyğun olaraq – **“XIX əsrdə türk və Azərbaycan ziyalılarının münasibətləri”**adlandırılmışdı. Bu paraqraf Mirzə Fətəli Axundovun 1863-cü ildə Osmanlı Elm Cəmiyyətinə (Cemiyyet-i İlmiyye-i Osmaniyye) yeni əlifba layihəsini təqdim etmək məqsədilə İstanbula səfərindən tutmuş, XIX əsrin ikinci yarasından başlayaraq iki mədəniyyətin nümayəndələri arasında əlaqələri, əsrin son onilliyində Əhməd-bəy Ağaoğlu və Əlibəy Hüseynzadənin Osmanlı imperiyasının ictimai-siyasi həyatında fəal iştirakını əks etdirir.

Dissertasiyanın **Nəticə** hissəsində işin əsas nəticələri sistemləşdirilmiş halda təqdim olunmuşdur. Tədqiqat nəticəsində məlum olmuşdur ki, ziyalıların XIX əsrdə Osmanlı imperiyasının müstəqil sosial təbəqəsi kimi formalaşması probleminin tədqiqi mühüm tarixi, sosioloji və mədəni əhəmiyyətə malikdir. Belə ki, XIX əsr boyu ziyalılar cəmiyyətin əsas mütərəqqi və düşünən, xalqının və

ölkəsinin tarixi inkişafının gedişatına təsir göstərə bilən təbəqəsi hesab olunurdu. Bu problemin tədqiqi bir sıra digər əlaqəli məsələlərin öyrənilməsini də qaçınılmaz edir.Türk ziyalısının şəxsiyyətinin formalaşdığı mədəni-ictimai və siyasi mühitə, öyrənilən tarixi dövrdə ölkədəki siyasi vəziyyətin xüsusiyyətlərinə, milli-təhsil ənənələrinə dair bilikləronun intellektual və əxlaqi xarakterinə aid xüsusiyyətləri müəyyən etməyə imkan verir. Öyrənilən təbəqənin formalaşması prosesinin mənfi və müsbət xüsusiyyətlərinin təhlili, öz növbəsində, əldə edilmiş bilikləri praktiki müstəvidə, daha doğrusu, milli ziyalıların yeni nəsillərin yetişdirilməsi məqsədi ilə tərtib edilmiş təlim və tədris proqramlarında tətbiq etməyə imkan verir.

“Ziyalı” anlayışının tərifinə çoxsaylı yanaşmalar mövcuddur: sosioloji, fəlsəfi, ədəbi, sosial-iqtisadi (bu halda “düşünən proletar”, “burjua ziyalısı” və s. kimi təriflərdən istifadə olunur); və ya tədqiqatçıların müəyyən dövrlərə və cəmiyyətin sosial inkişafına, cəmiyyətin sinif bölgüsünə və s. bağladıqları təriflər. Bir sözlə, “ziyalı” məfhumunu təhlil etdikdə məlum olur ki, bu sözün mənası zaman keçdikcə xeylidəyişikliyə məruz qalmışdır. XIX əsr Osmanlı cəmiyyəti reallıqları kontekstində o dövrün türk ziyalıları üçün ən uyğun tərif XIX əsrin özündən alınan tərifdir. Ənənəvi olaraq ziyalı təbəqəsini ümumbəşəri dəyərləri sinfi dəyərlərdən üstün tutan, fəaliyyətlərinin əsasını azadlıq, şərəf, hörmət, ədalət kimi kateqoriyalar təşkil edəndünyagörüşə sahib cəmiyyət nümayəndələri təşkil edirdi.

Türk ziyalılarının ilk nümayəndələri AhmetCevdet Paşa, Kethudazade Arif Efendi, AtaullahMehmedŞanizade kimi mənəvi mühitdən, Osman HamdiBey kimi hərbi mühitdən, saray bürokratiyasından, məsələn, Osmanlı imperiyasının Londondakı səfiri İsmayıl FarukEfendi, Tənzimat islahatlarının əsas təşəbbüskarlarından biri, Mustafa Rəşid Paşa və başqa nümayəndələr kimi tamamilə fərqli sosial təbəqələrdən gələn insanlar idi. Bu insanlar əsas vəzifəsini xalqın maariflənməsində, istər yeniüsullu məktəblərdə, istərsə də xaricdə, vəzifəsini yerinə yetirmək üçün və ya oxumaq üçün getdikləri yerlərdəəldə etdikləri “yeni bilikləri” yaymaqda görürdülər.Baxmayaraq ki, Osmanlı imperiyasında

modernləşmə prosesi sistemli şəkildə müxtəlif maneələrlə qarşılaşmaq məcburiyyətində qalmışdı, məhz onlarınfəaliyyəti sayəsində modernləşmə prosesi başlanmışdı.

XIX əsr türk ziyalı təbəqəsinin müxtəlif nəsillərinin formalaşma və inkişaf mərhələlərinin araşdırılması zamanı məlum olur ki, onlar bu proses üçün səciyyəvi olan mərhələlərdən keçmilər.Həm də bu mərhələlər digər cəmiyyətlərdə ziyalı təbəqəsinin inkişafı prosesi ilə oxşar cəhətlər daşıyır. Məsələn, Osmanlı imperiyasında Tənzimat islahatları (1839-1876), Misirdə Məhəmməd Əlinin islahatları (XIX əsrin 20-ci illəri), İranda Tağı Xan islahatları (1848-1851), Yaponiya - Meidzi bərpası (1868-1889) və s. kimi proseslərdən görünür ki, saray rəhbərliyi ölkənin Qərbin hərbi-texniki inkişafı təhlükəsi qarşısında acizliyini dərk etdikdən sonra hərbi-iqtisadi islahatlar keçirmiş və bu islahatlar tezliklə sosial-iqtisadi inkişafa da sirayət etmişdir. Bu prosesin nəticəsi olaraq yeni təbəqənin - ziyalı təbəqəsinin yaranması baş tutmuşdur. Bununla yanaşı, xüsusi olaraq qeyd etmək lazımdır ki, XIX əsrdə türk ziyalılarının fəaliyyəti müəyyən dərəcədə bəzi qonşu ölkələrdə milli ziyalı təbəqəsinin yaranmasına nümunə olmuşdur. Öz ictimai-siyasi quruluşunun modernləşdirilməsi üçün Tənzimat islahatlarını nümunə götürən ilk şərq ölkəsi Qacarlar sülaləsinin hakimiyyəti altında olan İran idi. Osmanlı imperiyasında təhsil almış İran cəmiyyətinin bəzi mütərəqqi adamları vətənə qayıtdıqdan sonra bu bilikləri praktikada tətbiq etməyə cəhd göstərmişlər. Bu baxımdan, Tağı xanın islahatlarının Tənzimat islahatlarındanqaynaqlandığı ümumi qəbul edilən məlumatdır.

Beləliklə, XIX əsr türk ziyalı təbəqəsi uzun və çətin inkişaf yolu keçmiş, ölkənin müasir inkişafını təmin edən və bu günə qədər davam edən çadaş yolun əsasını qoyan qabaqcıl islahatçı ideyaların əsas generatoru olmuşdur.

## Dissertasiyanın məzmunu aşağıdakı nəşrlərdə öz əksini tapmışdır:

1. Aghayeva, N. The Ottoman Empire in the second half of the 19th century // -Romania: Universitatea Babeş-Bolyai, İnstitutul de Turcologieşi Studii Central-Asiatice Cluj-Napoca, «Studia et

Documenta Turcologica», «Presa Universitară Clujeană», -2016. № 3-4, -s. 43-53.

2. Агаева, Н. Османская империя второй половины XIX века глазами турецкой эмигрантки (из писем Зейнеб-ханум) // -Bakı: AMEA Xəbələr (İctimai elmlər seriyası), -2016. № 2, -s. 125-133.
3. Aghayeva, N. İmpact of Ottoman civilization to the world // -Gəncə: “2016-ci il Avropa gənclər paytaxtı”, Avropa Gənclər Forumu, -2016, -s. 283-284.
4. Агаева, Н. История Османской империи XIX века в западных мемуарах // -Bakı: “Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar”, I Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş beynəlxalq konfrans materialları, -2016. – s. 467-468.
5. Агаева, Н. Об общественной мысли в Османской империи в XIX в. // -Bakı: “Müasir şərqşünaslığın actual problemləri (“Ziya Bünyadov qiraətləri” beynəlxalq elmi konfrans), -2017. –s. 168-169.
6. Агаева, Н. Значение мемуаров в изучении истории Османской империи XIX в. // - Bakı: Azərbaycanda türk xalqları tarixinin tədqiqi və tədrisi məsələləri, Respublika elmi-praktik konfrans, BDU, -2017. –s. 123-126.
7. Агаева, Н. Предпосылки формирования новых взглядов на внешнюю политику в Османской империи в XVIII- начале XIX века // -Bakı: «Tarix və onun problemləri» jurnalı, -2019, № 4. –s. 77-80.
8. Агаева, Н. Трансформация Османского общества в первой половине XIX века. Появление категорий «алафранга» и «алатурка» // -Bakı: AMEA «Sosial Elmlər» jurnalı, -2021, № 1. –s. 66-74.
9. Агаева, Н. Влияние образования на формирование турецкой интеллигенции в первой половине XIX века // - Bakı: Azərbaycan Dövlət Pedaqoji Universiteti «Tarix, İnsan və Cəmiyyət (elmi-nəzəri və elmi-metodik jurnal)», -2021, № 2 (32). –s. 3-10.
10. Агаева, Н. Появление новых социально-культурных привычек в османском обществе XIX века // -Bakı: Bakı Avrasiya Universiteti «Sivilizasiya» jurnalı, -2021 № 4 (cild 10), -s. 96-102.

11. Aghayeva, N. Z.M.Bunyadov and his role in the world Orientalism // - Stockholm: International Scientific Symposium “The triumphant leader of the victorious people: Ilham Aliyev”, -2023. –s. 327-331.

Dissertasiyanın müdafiəsi 26 sentyabr 2024-cü il tarixində saat 13⁰⁰ Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 saylı Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az-1143 Bakı ş., H.Cavid pr. 115.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 12 avqust 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:

Kağızın formatı:

Həcm:

Tiraj: